1-_Layout 1 29.06.2021 12:45 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 12 (602)

1 iyul 2021-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# Prezident, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 26-da Silahlı Qüvvələr Günü münasibətilə "Gülüstan" sarayında Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşüb.

Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı görüşdə nitq söyləyib.

**Prezident İlham Əliyevin nitqi**

- Əziz hərbçilər,

Mən sizi və bütün Azərbaycan xalqını Silahlı Qüvvələr Günü münasibətilə ürəkdən təbrik edirəm. Xahiş edirəm ki, görüşümüzün əvvəlində Vətən müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Əyləşin.

Biz şəhidlərimizin qisasını döyüş meydanında aldıq. Dəfələrlə demişdim ki, bizim şəhidlərimizin qanı yerdə qalmayacaq. Belə də oldu. İkinci Qarabağ müharibəsi Azərbaycanın tam Qələbəsi ilə nəticələndi.

İyunun 26-sı Silahlı Qüvvələr Günüdür. Bu günü biz hər il təntənə ilə qeyd edirdik. Müxtəlif tədbirlər keçirilirdi. Hər il 26 iyun tarixində hərbçilərlə görüşlər əsnasında mən deyirdim ki, gün gələcək biz öz doğma torpağımıza qayıdacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Deyirdim ki, əgər bu, danışıqlar yolu ilə mümkün olmayacaqsa, məsələni hərbi yolla həll edəcəyik. Belə də oldu. Uzun illər davam edən danışıqlar heç bir nəticə vermədi və Azərbaycan öz ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ döyüş meydanında təmin etmişdir.

Hər il bu bayramı qeyd edərkən biz özümüzə söz verirdik ki, nəyin bahasına olursa-olsun, doğma torpaqlarımızı işğalçılardan azad edəcəyik. Bu gün qürur hissi ilə deyə bilərəm ki, biz Silahlı Qüvvələr Gününü müzəffər ordu kimi, qalib xalq kimi qeyd edirik. Bu, tarixi nailiyyətdir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq zəfər olmamışdır. Biz bütün gücümüzü



səfərbər edərək düşmənə sarsıdıcı zərbələr endirib, düşməni məğlub etdik, tarixi ədaləti və ölkəmizin ərazi bütövlüyünü bərpa etdik.

Biz bu günü yaxınlaşdırmaq üçün hazırlaşırdıq. Mən öz çıxışlarımda dəfələrlə demişdim ki, hər gün biz bu günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırdıq.

Əlbəttə ki, Birinci Qarabağ müharibəsi bizim üçün böyük faciə idi, milli faciə idi. Eyni zamanda, bu, böyük humanitar fəlakətə gətirib çıxardı. Çünki o vaxt Azərbaycan əhalisinin sayı səkkiz milyon idi, onlardan bir milyonu qaçqın və məcburi köçkün vəziyyətində yaşamalı olmuşdur. Bizim iqtisadiyyatımız demək olar ki, tamamilə dağıdılmışdı, sənaye potensialı məhv edilmişdi, iqtisadi inkişaf haqqında söhbət belə getmirdi. Bu böyük humanitar fəlakət, əlbəttə ki, ölkəmizi uçurum kənarına qoymuşdu.

Azərbaycan xalqı o ağır günlərdə müdriklik göstərərək Heydər Əliyevə üz tutdu, onu hakimiyyətə dəvət etdi. O, hakimiyyətə gələndən sonra Azərbaycanda işlər müsbət istiqamətdə getməyə başlamışdır. O cümlədən, ordu quruculuğu sahəsində böyük islahatlar aparılmışdır. Nizami ordu quruculuğu məhz o illərdə başlamışdır.

Bir daha demək istəyirəm ki, bizim hazırlığımız hərtərəfli olmalı idi. Çünki biz, ilk növbədə, beynəlxalq müstəvidə uğur qazanmalı idik və buna nail olduq. Aparıcı beynəlxalq təşkilatlar – BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, hətta daim bizə qarşı ədalətsiz mövqe sərgiləyən Avropa Parlamenti, Avropa Şurası məcbur olub həqiqəti əks etdirən, bizim maraqlarımıza cavab verən qərar və qətnamələr qəbul etmişlər. Bu, məsələnin beynəlxalq tərəfi idi.

Bununla paralel olaraq biz iqtisadi güc toplamalı idik. Bizim hazırlıq işlərimizdə bu amil deyə bilərəm ki, aparıcı rol oynamışdır. Çünki açıq-aydın dərk edirdik ki, iqtisadi müstəqillik olmasa, biz istədiyimizə nail ola bilmərik. Ona görə iqtisadi müstəqillik əldə etmək Prezident kimi mənim başlıca vəzifələrimdən biri idi və biz bunu artıq neçə ildir ki, təmin etmişik. Bu gün heç kimdən asılı deyilik. Bu gün iqtisadi göstəricilərə görə Azərbaycan dünyada aparıcı yerlərdədir.

Biz indi böyük quruculuq işlərinə start vermişik. Baxın, müharibədən cəmi 7 ay keçib, nə qədər böyük işlər görmüşük. Əgər bizdə bu hazırlıq olmasaydı, biz bunu edə bilməzdik. Bizim hazırlıq işlərinin aparılmasında əsas amil xalq-iqtidar birliyi olmuşdur. Çünki bizim siyasətimiz xalq tərəfindən dəstəklənir, bizim siyasətimizə böyük inam var. Müharibə və onun nəticələri bir daha Azərbaycan xalqını əmin etdi ki, bu inamı bizə Azərbaycan xalqı bəxş etmişdir. Çünki nəyi demişiksə, onu da etmişik. Biz "nəyi nə vaxt, necə etmək lazımdır bilirik" deyəndə, məhz bunu nəzərdə tuturduq.

Biz güclü iradə göstərdik, cəsarət göstərdik, milli ruh nümayiş etdirdik və istədiyimizə nail olduq. Bir daha demək istəyirəm ki, İkinci Qarabağ müharibəsi şanlı tarix kimi, şanlı qələbə kimi Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazılıb. Azərbaycan bundan sonra müzəffər ölkə kimi yaşayacaq, Ermənistan bundan sonra məğlub edilmiş ölkə kimi yaşayacaq.

Bilməlidir ki, biz heç nəyi unutmamışıq. Biz bunu unuda bilmərik. Biz şəhidlərimizi unuda bilmərik, Xocalı qurbanlarını unuda bilmərik, dağılmış şəhərlərimizi unuda bilmərik. Dağılmış qəbirləri, təhqir edilmiş məscidləri biz necə unuda bilərik? Biz heç vaxt unutmamalıyıq. Azərbaycan xalqı bunu öz yaddaşında daim saxlamalıdır.

Ancaq biz artıq Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin qanını aldıq və qisasımızı döyüş meydanında aldıq. Amma bununla bərabər, Ermənistan dərk etməlidir ki, Azərbaycan bundan sonra da güclənəcək və bu, şübhəsizdir.

Ermənistanı məhv etmişik, siz yaxşı bilirsiniz hansı çətin şərait əsasında. Onlar 30 il istehkamlar, 6 müdafiə xətti qurmuşdular. O bölgənin təbii relyefi onlar üçün çox əlverişli idi. Biz qəhrəman övladlarımızın canı-qanı bahasına, qəhrəmanlığı bahasına bu torpaqları azad etmişik. Ölümə gedirdi bizim gənclərimiz, əsgərlərimiz, zabitlərimiz. Ona görə Ermənistan tam dərk etməlidir ki, biz istənilən hərbi vəzifəni icra edə bilərik və heç kim bizi dayandıra bilməz. Onlar bilməlidirlər ki, dəmir yumruq yerindədir.

Əziz hərbçilər, bu gözəl bayram günündə sizinlə görüşmək mənim üçün çox xoşdur. Silahlı Qüvvələr Gününü biz Müzəffər Ordu kimi, qəhrəman xalq kimi qeyd edirik. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

**"AZƏRTAC"ın materialları əsasında hazırlanıb.**

# DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ QƏBUL KEÇİRİLİB

## Nazir V.Eyvazov: "İki ölkənin Daxili İşlər nazirlikləri arasında səmərəli əməkdaşlıq mövcuddur"

**Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyunun 22-də ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı, ordu generalı Qamar Caved Bacvanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Qonağı salamlayan nazir strateji müttəfiqlər olan iki dövlət arasında əlaqələrin zəngin tarixə və dərin köklərə malik olduğunu, Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu münasibətlərin möhkəm təməllər üzərində qurulmasına hər zaman xüsusi önəm verdiklərini məmnunluqla qeyd edib.

General-polkovnik Vilayət Eyvazov qonağa ölkəmizdəki mövcud kriminogen durum, həyata keçirilən islahatlar, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində əldə edilən nəticələr barədə qısa məlumat verib.



İki ölkənin Daxili İşlər nazirlikləri arasında səmərəli əməkdaşlığa söykənən ikitərəfli münasibətlərin mövcudluğunu diqqətə çatdıran nazir V.Eyvazov imzalanmış beynəlxalq hüquqi sənədlər əsasında transmilli mütəşəkkil cinayətkarlıqla, narkotiklərin qanunsuz dövriyyəsi ilə və xüsusilə insan alverinə qarşı mübarizədə birgə səylərin göstərildiyini, əməliyyat məlumatlarının mübadilə olunduğunu da bildirib. O, eyni zamanda hüquq-mühafizə orqanları arasında əməkdaşlıq əlaqələrinin Beynəlxalq Kriminal Polis Təşkilatı (İNTERPOL) çərçivəsində də uğurla həyata keçirildiyini və DİN-in Daxili Qoşunları ilə Pakistanın Qlobal Sənaye və Müdafiə Həlli Təşkilatı arasında hərbi maddi-texniki sahədə yaradılmış əlaqələrin uğurla davam etdirildiyini vurğulayıb.

Səmimi qəbula, ətraflı məlumata görə təşəkkür edən ordu generalı cənab Qamar Caved Bacva dövlətlərimiz və xalqlarımız arasında dostluq, qardaşlıq münasibətlərinin həqiqətən dərin köklərə malik olduğunu önə çəkərək, xüsusilə, son illər ərzində bütün sahələrdə əlaqələrin daha sürətli inkişafından, ölkəmizdə yaradılmış sabitlik və əmin-amanlıqdan məmnunluğunu bildirib.

Səmimilik və dostluq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 29.06.2021 19:05 Page 1



## STRATEJİ ARAŞDIRMALAR VƏ DÖVLƏT MÜDAFİƏSİNİ İDARƏETMƏ AKADEMİK KURSUNDA NÖVBƏTİ BURAXILIŞ OLUB

***Kursda Daxili İşlər Nazirliyini təmsil edən zabitimiz xüsusilə fərqlənib***



Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının nəzdində 1999-cu ilin martın 15-dən etibarən Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursu fəaliyyət göstərir. Hər il olduğu kimi, bu il də ənənəyə sadiq qalaraq təşkil olunan akademik kursun növbəti buraxılışı məhz 15 İyun - Milli Qurtuluş Gününə təsadüf edib.

Qeyd edək ki, sözügedən kursda Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsinin kadrlar idarəsi rəisinin müavini-komplektləşdirmə şöbəsinin rəisi polkovnik Elçin Məmişov da iştirak edib. Ümumilikdə, Daxili İşlər Nazirliyini uğurla təmsil edən polkovnik E.Məmişov ilk gündən 15 nazirliyi əhatə edən 22 nəfər hərbi qulluqçu və mülki şəxslərin üzərində rəhbər təyin olunub. Tədris vaxtı iştirakçılar Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizə Dəstəsinə və Xarici İşlər Nazirliyinə baş çəkiblər.

Buraxılış mərasimində məzunlar adından çıxış edən zabitimiz bu gün Silahlı Qüvvələrin Hərbi Akademiyasının əsas vəzifələrindən biri olan dövlət orqanlarında çalışan vəzifəli şəxslərə respublikanın müdafiəsi və təhlükəsizliyi ilə bağlı hərbi-strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərə dair çoxşaxəli biliklərin öyrədilməsini, sözün əsl mənasında, yüksək səviyyədə təmin etdiyini, iştirakçılar üçün şərait yaradıldığını nəzərə çatdırıb. Böyük qürur hissi ilə Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək uğrunda işğalçı Ermənistana qarşı 44 gün davam edən Vətən müharibəsi zamanı qazandığımız parlaq qələbədən də söz açan məruzəçi Azərbaycanı bu şərəfli zəfərə qovuşduran Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin tarixi xidmətini önə çəkib. Qalib Silahlı Qüvvələrimizin misilsiz hünər və fədakarlığını xalqımızın heç vaxt unutmayacağını bildirib. Respublikamızın həyatında, eləcə də dünyada baş vermiş bu və ya digər amillərin geniş təhlil edilərək araşdırılmasının Hərbi Akademiyanın, o cümlədən, akademik kursun tədris proqramlarında öz əksini tapdığını qeyd edərək, bütün bunların dinləyicilərə uğurla tədris olunduğunu vurğulayıb.

Polkovnik E.Məmişov akademik kursda tədris prosesinin təşkilini, eləcə də iştirakçılar üçün yaradılmış şəraiti müsbət qiymətləndirərək, dinləyicilər adından və şəxsən öz adından Hərbi Akademiyanın komandanlığına dərin təşəkkürünü ifadə edib.

Daha sonra kursu yüksək nailiyyətlə başa vuran zabitimiz "Yaş kötüyü"nə rəmzi xatirə lövhəsini vurub.

Sonda akademik kursu bitirən dinləyicilərə müvafiq diplom və döş nişanı təqdim edilib.

Onu da qeyd edək ki, Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursuna dövlət orqanlarında şöbə rəisinin müavini və daha yuxarı vəzifələrdə çalışan dövlət qulluqçuları, "polkovnik" ştat kateqoriyalı, habelə daha yuxarı vəzifələrdə xidmət edən hərbi qulluqçular qəbul edilirlər.

Məlumat üçün bildirək ki, Hərbi Akademiyanın əsas vəzifələri dövlət orqanlarında çalışan vəzifəli şəxslərə respublikanın müdafiəsi və təhlükəsizliyi ilə bağlı hərbi-strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərə dair biliklərin öyrədilməsini, ali hərbi təhsilli komandir və qərargah zabitlərinin, hərbi-elmi işçilərin hazırlanmasını və hərbi iş sahəsində elmi tədqiqatların aparılmasını təmin etməkdən ibarətdir.

**baş leytenant**
**Nigar Ağayeva**

## ALİ HƏRBİ MƏKTƏBİ FƏRQLƏNMƏ DİPLOMU İLƏ BİTİRƏN MƏZUNLAR







Daxili Qoşunların xüsusi təyinatlı təhsil müəssisəsi olan Ali Hərbi Məktəb Azərbaycan Respublikası Prezidentinin 25 fevral 2011-ci il tarixli Sərəncamı ilə Orta İxtisas Hərbi Məktəbinin bazasında yaradılıb. Keçən illər ərzində bu təhsil ocağında bir-birinin ardınca Vətənə, dövlətə xidməti hər şeydən üstün tutan, savadlı, bacarıqlı və seçdikləri peşəni ürəkdən sevən zabitlər hazırlanıb. Tədris ili ərzində qazandığı bilikləri təkmilləşdirən kursantlarımızın bəziləri Ali Hərbi Məktəbi yüksək göstəricilərlə başa vurublar. Bu cür gənc, bacarıqlı gənclərin sorağını eşitmək hər birimiz üçün sevindiricidir.

Qəzetimizin bu sayında təhsil aldığı müddətdə yüksək nəticələrə nail olduğuna, hərbi xidmət vəzifələrini nümunəvi yerinə yetirdiyinə, hərbi intizamın möhkəmləndirilməsində fəal iştirak etdiyinə görə müstəsna hal olaraq həvəsləndirmə qaydasında ilk olaraq "baş leytenant" zabit hərbi rütbəsi verilən üç hərbi qulluqçu haqqında məlumat vermək istərdik.

Baş leytenant Ramazan Hümbətli 2000-ci il martın 16-da Bakı şəhərində anadan olub. Orta təhsilini doğulub boya-başa çatdığı Bakı şəhəri, Nizami rayonunda yerləşən 201 saylı məktəbdə alıb. 2017-ci ildə həmin məktəbi bitirən Ramazan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul olunub. 2021-ci ildə məktəbi "fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi" ixtisası üzrə bitirən hərbi qulluqçumuz 67987 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi bölməsində qrup komandiri vəzifəsinə təyin olunub.

Ali Hərbi Məktəbin məzunu olduğuna, təhsilini uğurla başa vurduğuna, məhz Daxili Qoşunların hərbi qulluqçusu adını daşıdığına görə qürurlandığını deyən baş leytenant Zaur Mehtiyev də Daxili Qoşunların nəzdində açılmış ali təhsil müəssisəsinin hərbçi kadrların hazırlanmasındakı əhəmiyyətli rolundan bəhs etdi.

O, 1999-cu il sentyabrın 12-də Sumqayıt şəhərində doğulub. 2014-cü ildə Sumqayıt şəhəri Həzi Aslanov adına 22 nömrəli məktəbin 9-cu sinfini bitirib, Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olunub. 2017-ci ildə Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Ali Hərbi Məktəbinə daxil olub, 2021-ci ildə həmin məktəbin "fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi" ixtisası üzrə bitirərək, Daxili Qoşunların 16075 saylı hərbi hissəsində komendant bölüyündə komendant taqımının komandiri vəzifəsinə təyin olunub.

Məsuliyyətinə, davamiyyətinə və intizamına görə fərqlənən üçüncü əlaçı hərbi qulluqçumuz baş leytenant Elvin Salmanovdur. O, 2000-ci il aprelin 1-də Bakı şəhərində anadan olub. Orta təhsilini Bakı şəhəri, Binəqədi rayonunda yerləşən 83 saylı məktəb-liseydə alan Elvin 2017-ci ildə məktəbi bitirərək Daxili Qoşunların Ali Hərbi Məktəbinə qəbul olunub. 2021-ci ildə məktəbi "fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi" ixtisası üzrə bitirən hərbi qulluqçumuz 99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi bölməsində qrup komandiri vəzifəsinə təyin olunub.

Sonda Ali Hərbi Məktəbi bitirərək xidməti fəaliyyətdə ilk addımlarını atan bütün hərbçilərimizə uğurlar arzulayırıq.

**baş leytenant Nigar Ağayeva**

# Hərbi hissədə tədris məşğələlərinin keçirilməsi üçün geniş imkanlar yaradılıb

Daxili Qoşunların 25032 saylı hərbi hissəsində tədrisin yüksək səviyyədə təşkil olunması üçün hər bir şərait yaradılıb. Hərbi hissədə aparılan abadlıq və yenidənqurma işləri hərbi qulluqçuları qarşıya qoyulmuş tapşırıqları layiqincə yerinə yetirməyə ruhlandırır.



Hərbi hissə komandiri polkovnik-leytenant İlkin Gözəlov hərbi hissənin ötən dövrdəki fəaliyyəti barədə söz açaraq dedi: "Bu yaxınlarda - iyun ayının 12-də hərbi hissənin yaradılmasının 29-cu ildönümünü qeyd etdik. 1992-1994-cü illərdə hərbi hissənin şəxsi heyəti ərazi bütövlüyümüz uğrunda döyüşlərdə iştirak edib. 1999-cu ildə hərbi hissəyə tədris təyinatlı vəzifələr həvalə olunub. Ötən müddət ərzində hərbi qulluqçuların peşəkarlıqlarının artırılması üçün təlim prosesinin təkmilləşdirilməsi, maddi tədris bazasının gücləndirilməsi istiqamətində effektiv tədbirlər həyata keçirilib".

Artıq 29 ildir ki, fəaliyyət göstərən hərbi hissə daxili işlər naziri və daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının diqqət və qayğısı sayəsində əsaslı şəkildə yenilənib, maddi-texniki təchizatı yaxşılaşıb.



Bu günlərdə sözügedən hərbi hissədə xidməti ezamiyyətdə olduğum zaman bunun bir daha şahidi oldum. Zəngin xidmət təcrübəsinə malik olan hərbi hissənin tarixinə, bugünkü həyatına nəzər salmaq bizim üçün həqiqi mənada maraqlı oldu.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini mayor Bilal Hacıyevlə söhbət zamanı məlum oldu ki, tədris təyinatlı hərbi hissədə kiçik komandirlər, kiçik mütəxəssislər (rabitəçi, sürücü və aşpazlar) hazırlanır, qoşunların hərbi hissələrinə göndərilirlər.

### Təcrübəli və bacarıqlı kiçik komandirlərin hazırlanmasına ciddi fikir verilir

Hərbi hissədə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirən bölmələrdən biri kiçik komandirlər hazırlayan tədris bölüyüdür. Bölüyün əsas təyinatı hərbi qulluqçulara manqa komandirinin vəzifələrinin, tabelikdə olan əsgərlərlə təlimin, sıra hazırlığının və tərbiyə işinin aparılması qaydalarının öyrədilməsidir. Kiçik komandirlərin metodiki ustalığının, təşkilatçılıq və idarəetmə qabiliyyətinin artırılması da bölüyün funksional vəzifələrinə daxildir.

Kiçik komandirlər hazırlayan tədris bölüyünün komandiri-baş müəllim baş leytenant Xəqani Şirinzadənin məşğələlərin keyfiyyətli şəkildə təşkili və keçirilməsində əməyi danılmazdır. Funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşan komandir tabeliyində olan hərbi qulluqçulara qarşı tələbkarlığı və ciddiliyi ilə seçilir. Daim peşəkarlıq vərdişlərinin təkmilləşdirilməsi yönündə çalışır. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan baş leytenant X.Şirinzadə düşünür ki, kiçik komandirlərin hazırlanmasında ən əsas məqam tədris proqramının dərindən mənimsənilməsidir. Belə ki, tədris müddəti ərzində məşğələlərdə fəal olan, daha çox öyrənməyə can atan və bütün biliklərini təcrübədə tətbiq etməyi bacaran hərbi qulluqçular yekun imtahanında lazımi nəticə göstərirlər.

Kiçik komandirlərin hazırlanması kursu müvafiq təhsil proqramının tələblərinə uyğun aparılır.

Bölük komandiri bildirdi ki, tədris proqramı bitdikdən sonra hərbi qulluqçular təcrübə keçmək üçün Daxili Qoşunların 12318 saylı hərbi hissəsinə ezam olunucaq, manqa komandiri kimi fəaliyyət göstərəcəklər. Təyin olunmuş müddət bitdikdən sonra bütün hərbi qulluqçular hərbi hissəyə qayıdırlar və Daxili Qoşunların Baş İdarəsi tərəfindən təsdiq olunmuş imtahan komissiyası təcrübəçilərin əldə etdikləri bilikləri hansı dərəcədə mənimsədiklərini yoxlamaq məqsədilə imtahanlar qəbul edir. Təbii ki, sınaqları "əla" və "yaxşı" qiymətlərlə başa vuran hərbi qulluqçular daxili qoşunlar komandanının müvafiq əmrinə əsasən, "kiçik çavuş" hərbi rütbəsi verilməklə aidiyyəti üzrə vəzifələrə təyin olunurlar.

### Bölüyün əsas vəzifəsi mütəxəssislər hazırlamaqdır

25032 saylı hərbi hissədə xidməti fəaliyyətini uğurla həyata keçirən bölüklərdən biri də sürücü və kiçik mütəxəssislər hazırlayan tədris bölüyüdür. Bölüyün qarşısında duran əsas tapşırıq qoşunların hərbi hissələrini rabitəçi, aşpaz və sürücülərlə təmin etməkdir.

Bölük komandiri vəzifəsini icra edən leytenant Fərid İbadlı, mütəmadi olaraq, hər bir taqımın təyinatına uyğun məşğələlərə cəlb olunduğunu nəzərimizə çatdırdı. Qeyd etdi ki, tədris zamanı rabitəçi mütəxəssisləri hazırlayan taqımın şəxsi heyətinə qoşunların təchizatında olan rabitə və yüksək texnoloji vasitələrin, ultraqısa dalğalı, eyni zamanda, qısadalğalı radiostansiyaların taktiki-texniki xüsusiyyətləri izah edilir, işə salınması, istismarı, eləcə də radiomübadilənin aparılması qaydaları öyrədilir.

Rabitəçi mütəxəssislərin hazırlanması daxili qoşunlar komandanının müvafiq əmrinin tələblərinə əsasən təşkil edilir. Şəxsi heyətin ixtisas hazırlığı üzrə əsas təlim forması aparatlarda, fəaliyyətdə olan rabitə kanallarında praktiki məşğələlərdir. Nəzəri bilik ştat texnikasının iş prinsipinin dərk olunması həcmində verilir. Məşğələlər keçirilən zaman stansiyalardan, sabit rabitə qovşaqlarından, orada olan texnikadan və başqa maddi-təlim bazalarından istifadə olunur. Rabitə vasitələrində işləmək üçün təlim ilk dəfə sinifdə və fəaliyyətdə olan aparatlarda, sonra isə səhra rabitə qovşaqlarında keçirilir.

Hər bir məşğələnin sonunda öyrədilən materialın mənimsənilməsi araşdırılır və qiymətləndirilir.



Aşpazlara ərzaq payı normaları, yeməklərin bişirilməsi, səhra şəraitində hazırlanması, texnoloji avadanlıqlardan düzgün istifadə edilməsi, o cümlədən, gigiyena qaydalarına ciddi riayət olunması üsulları aşılanır.

Aşpaz hazırlayan tədris taqımının komandiri-müəllim leytenant Muradxan Namazov bildirdi ki, tədris proqramı bitdikdən sonra hərbi qulluqçular təcrübə keçmək üçün Daxili Qoşunların 25031, 67987 və 99713 saylı hərbi hissələrinə ezam olunurlar. Təyin olunmuş müddət bitdikdən sonra hərbi hissəyə qayıdırlar.



Tədris dövrünü, eləcə də imtahanları müsbət qiymətlə başa vuran hərbi qulluqçular qoşunların hərbi hissələrində aidiyyəti üzrə vəzifələrə təyin olunurlar.

**kapitan Sadıq Rəfiyev**

3_Layout 1 29.06.2021 12:53 Page 1



*Şəhidlərimiz*

# Döyüşçü mətinliyi, silahdaş dəyanəti...

Azərbaycanın öz ərazi bütövlüyünün bərpası uğrunda işğalçı Ermənistana qarşı apardığı 44 günlük Vətən müharibəsi xarakterinə görə müasir döyüş taktikası, yeni hərbi texnologiyaların tətbiq edilməsi, düşmənə qarşı vuruşan Silahlı Qüvvələrimizin misilsiz rəşadəti, mənəvi-psixoloji cəhətdən üstünlüyü, ön və arxa cəbhələrin vəhdəti, vahid komandanlıq prinsipinin qətiyyətlə həyata keçirilməsi, informasiya, diplomatiya müstəvilərində təşəbbüsün ələ alınması, müttəfiq və yaxın tərəfdaş ölkələrin real dəstəyinin gerçəkləşməsi ilə yadda qaldı, unudulmaz zəfərlə tarixə yazıldı.

1992-1994-cü illərdə Vətən torpağını erməni işğalçılarından müdafiə etmiş, şərəfli döyüş yolu keçmiş fədakar ataların layiqli davamçıları olan cəsur oğullarını da bizə Vətən müharibəsi tanıtdı.

Birinci Qarabağ müharibəsi veteranı, ordu sıralarından ehtiyata buraxılan zabit, Sumqayıtdakı Cəlil Səfərov adına 10 saylı orta məktəbdə idman müəllimi Vaqif İsgəndərovun oğlu gizir Emil İsgəndərov Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Vətən müharibəsi iştirakçısı olan şəhid hərbi qulluqçularından biridir. Bu vətənpərvər ailənin timsalında amansız müharibənin iki nəslin həyatında necə bir silinməz iz qoyduğunu görmək olar.

Emil 1990-cı il avqustun 5-də Sumqayıt şəhərində anadan olub. Valideynləri Vaqif İsgəndərov və Tənzilə İsgəndərova əslən Qubadlı rayonundandırlar. Məlum olduğu kimi, Birinci Qarabağ müharibəsi zamanı Qubadlı rayonu da işğal edilib. Həmin vaxt Qubadlıdan xeyli sayda məcburi köçkün Sumqayıta pənah gətirib.

Vaqif müəllim üç oğul atasıdır, Emil ailənin böyük övladı idi. Ailədə, yoldaşları arasında diqqətcil və qayğıkeş olması, təşkilatçılığı onu fərqləndirən cəhətlər kimi xatırlanır. Sumqayıtdakı 10 saylı orta məktəbdə 11 il oxuyub. Onun üçün həyat örnəyi atasının keçdiyi yol olub. İdmana maraq göstərib, Sumqayıtdakı "Alüminiumçu" idman kompleksində sərbəst güləş növü üzrə məşqlərə qatılıb, şəhər və respublika yarışlarında uğurlu nəticələr əldə edərək mükafatlandırılıb. Əməkdar məşqçi Firdovsi



Ömərovun atasının da, onun da idmançı kimi yetişdirilməsində əməyinin olması maraqlı faktdır.

2008-2010-cu illərdə Emil müddətli həqiqi hərbi xidmətdə olub. Müdafiə Nazirliyinin Bakıda və Gəncədə yerləşən "N" saylı hərbi hissələrində hərbi xidmət borcunu vicdanla yerinə yetirib. Atası kimi artilleriya bölməsində xidmət keçib, "kiçik çavuş" hərbi rütbəsində tərxis edilib.

Müddətli həqiqi hərbi xidmətdən sonra bir müddət Sumqayıt Texnologiya Parkında işləyib.

2012-ci ilin avqust ayında Emil həyatının mühüm qərarlarından birini verib - hərbçi kimi atasının davamçısı olmaq yönündə addım atıb. DİN-in Daxili Qoşunlarının 16073 saylı hərbi hissəsinə müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Bu hərbi hissədə xüsusi vasitələrin tətbiqi bölməsində xüsusi vasitələrin tətbiqi qrupunun yarımqrupunda atıcı, yarımqrup komandiri, həmin bölmənin manevr qrupunun komandiri, xüsusi təyinatlı dəstədə texnik vəzifələrində xidmət edib. Hərbi hissə komandanlığı tərəfindən bacarıqlı hərbi qulluqçu olduğuna görə onun gizir hazırlığı kursuna göndərilməsi qərara alınıb və bu barədə vəsatət qaldırılıb. 2014-cü ilin sentyabr ayının 15-dən 2015-ci ilin mart ayının 19-dək Daxili Qoşunların Ali Hərbi Məktəbində gizir hazırlığı kursunu keçib.

11.03.2020-ci il tarixdə isə Emil 12318 saylı hərbi hissədə xüsusi təyinatlı dəstədə texnik vəzifəsinə təyin edilib. Ümumiyyətlə, qeyd edim ki, məhz fəaliyyətindəki uğurlar və şəxsi keyfiyyətləri nəzərə alınaraq, o, xüsusi təyinatlı dəstədə xidmətə seçilib. Bütövlükdə, icraçılığı, çalışqanlığı ilə hərbi xidməti dövründə komandanlığın etimadını doğruldub, silahdaşlarının hörmətini qazanıb. Dəfələrlə müxtəlif mükafatlara layiq görülüb.

Gizir E.İsgəndərov 2020-ci ilin 27 sentyabrında başlayan və 44 gün davam edən Vətən müharibəsi zamanı 12318 saylı hərbi hissədən öz bölməsinin tərkibində döyüş bölgəsinə göndərilib. Həmin bölmə Vətən müharibəsinin əvvəlindən ehtiyat qüvvə qismində 16077 saylı hərbi hissədə yerləşdirilərək döyüş əməliyyatlarına hazırlıq görüb. Bir müddət sonra Füzuli-Cəbrayıl rayonları istiqamətinə gəliblər. Qarşıya qoyulan tapşırığa əsasən, oktyabr ayının sonunadək Cəbrayıl rayonunda işğaldan azad edilən ərazilərin müdafiəsində dayanıblar. Həmin ayın son günündən etibarən xüsusi təyinatlılarımız Xocavənd rayonunun Hadrut qəsəbəsində cəmləşdiriliblər. Buradan Tuğ, Böyük Tağlar kəndlərinə döyüşçülərimizi daşıyan avtomobil karvanı işğalçıların artilleriya atəşinə məruz qalıb. Bu səbəbdən döyüşçülərdən ibarət qruplar piyada şəkildə hərəkəti davam etdirməklə, Şuşa şəhərinə istiqamətlənən döyüş əməliyyatına başlayıblar. Döyüşçülərimiz bir neçə gün ərzində Xocavənd rayonunun dağlıq-meşəlik ərazilərindən, Xocalı rayonunun Çanaqçı, Sığnaq kəndlərindən keçməklə Şuşaya yaxınlaşıblar. Şuşa ətrafında ağır döyüşlər gedib. Bizim qüvvələrin şəhərə irəliləməsi yolunda ciddi maneə olan düşmənin atəş nöqtələri susdurulub.

Emili yaxından tanıyan və döyüş yoluna bələd olan silahdaşlarının bir qismi ilə söhbət etdim. Onlar Vətən müharibəsində iştirak edərək, ölüm-dirim mübarizəsində çətin sınaqlarla üz-üzə qalıblar. Bəziləri düşmən güllə və mərmisindən yaralanıblar. Aralarında qazi və ya hazırda hərbi xidmətdə olanlar, dövlət mükafatlarına layiq görülənlər də var.

12318 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri polkovnik-leytenant Anar Rizvanov söylədi ki, Emili hələ 16073 saylı hərbi hissədən tanıyıb. Məlumat verdi ki, o, şəxsi ləyaqətini qoruyan, vətənpərvər, döyüş şəraitində iradəli və qətiyyətli, hərbi anda sadiq, öz vəzifələrinə məsuliyyətlə yanaşan hərbi qulluqçu olub. Döyüş bölgəsində komandirin rabitəsini təmin edib, şəhid olduğu anadək işğalçılara qarşı cəsurcasına vuruşub. Son döyüşü Şuşa ətrafında olan Emilin ölümü komandirini çox sarsıdıb.



25033 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunda xüsusi təyinatlı qrupun komandiri baş leytenant Bilal Məmmədov bildirdi ki, Emil döyüşdə həmişə öndə gedən hərbi qulluqçulardan biri idi, öz cəsarəti ilə silahdaşlarını da ruhlandırırdı, döyüş qabiliyyəti, fiziki hazırlığı ilə seçilirdi. "4 gün boyunca düşmənin nəzarətindəki ərazidən keçməyi bacararaq Şuşa-Laçın yoluna çatdıq. Aldığımız döyüş tapşırığına görə, oradakı mövqeləri ələ keçirməli və qoruyub saxlamalı idik. Noyabrın 4-də düşmənlə üzbəüz döyüşə girdik. Çətin ərazi idi, biz aşağıdaydıq, düşmən təxminən 400 metr yuxarıda yerləşmişdi. Vuruşaraq irəlilədik, o yüksəkliyə qalxdıq. Orada 3 erməni mövqeyindən ikisini məhv etdik, qalan birində olanlar isə qaçdılar. Emil də üzbəüz atışmada düşməni canlı itkiyə məruz qoydu. Həmin yüksəklikdə mövqeləndik. Beləcə, Laçın yolu ilə düşmənin Şuşadakı qüvvələrinə dəstək göstərməsinin qarşısını aldıq. Həmçinin, Şuşadan qaçan erməni hərbçilər atəş hədəfimizdə idilər. Bu vəziyyətdə düşmən yerləşdiyimiz yüksəkliyi üç tərəfdən müxtəlif növ artilleriyadan şiddətli atəşə tutdu. Emil yaxınlığına düşən minaatan mərmisinin partlayışı nəticəsində bir neçə nahiyədən ağır yaralandı, sürətlə qan itirməyə başladı, ilk yardım göstərilsə də, həyatını xilas edə bilmədik. O döyüşdə bir neçə nəfər hərbi qulluqçumuz şəhid oldu və yaralandı".

Şəhidlərimizin canı, qazilərimizin qanı bahasına azad edilən Şuşada üçrəngli bayrağımızın dalğalanmasını görmək Emilə qismət olmayıb.

12318 saylı hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları: baş çavuş Azər Həsənov, çavuş Rəsul İbişov, ehtiyatda olan çavuş Fəxri Əliyev də Emilin Vətən naminə fədakarlığını qürur hissi ilə vurğuladılar.

Gizir E.İsgəndərov Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15.12.2020-ci il, 29.12.2020-ci il tarixli müvafiq sərəncamları ilə gizir Emil İsgəndərov ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Sumqayıtda 9-cu mikrorayon və 18-ci məhəllədəki yaşayış binalarına xeyirxah insanların təşəbbüsü ilə mərhumun xatirə lövhəsi vurulub.

2021-ci ildə "Radius" mətbəəsində işıq üzü görən, İbrahim Hüseynovun tərtibçisi olduğu "Qələbə şəhidləri" kitabında Emil haqqında məlumat verilib.

Qeyd edim ki, Emilin qardaşı Əli hərbi xidmət zamanı 2018-ci ilin may ayında Naxçıvan Muxtar Respublikasının ərazisində uğurlu Günnüt əməliyyatının iştirakçısı olub. Eləcə də Vətən müharibəsində ehtiyatdan çağırılaraq, sürücü-əsgər kimi fəaliyyət göstərib. Hazırda polis əməkdaşıdır.

2016-cı ilin sentyabr ayında Emil ailə qurub, 2 azyaşlı oğlu yadigar qalıb. İbrahim və Nicat atasızlığın acısı ilə böyüyəcəklər. Ancaq Azərbaycanı qələbəyə qovuşduran mərdlərin sırasında atalarının adı ilə həmişə fəxr edəcəklər.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

*Qazilərimiz*

# "İlk döyüşümüz Kəlbəcər istiqamətində oldu..."

"Dəmir yumruq" əməliyyatı ilə başlanan və 44 gün davam edən Vətən müharibəsində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti də fəal iştirak edib. Döyüşlərdə qəhrəmanlıq nümunələri göstərən xüsusi təyinatlılarımız düşmən üzərində qazanılan Qələbəyə öz layiqli töhfələrini veriblər.

"Qazilərimiz" rubrikasının budəfəki qəhrəmanı Vətən müharibəsində ağır yaralanaraq sol ayağını itirən cəsur silahdaşımız çavuş Puçaxov Kamran İmran oğludur.

Çavuş K.Puçaxov 1993-cü il oktyabrın 11-də Balakən rayonunun Tülü kəndində anadan olub. Orta təhsilini böyüyüb boya-başa çatdığı Tülü kənd tam orta məktəbində alıb. Müddətli həqiqi hərbi xidmətini 2011-2013-cü illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində keçib. Tərxis olunduqdan sonra bir müddət mülki işdə çalışıb. Lakin özünün də vurğuladığı kimi, hərbi xidmətə olan böyük marağı səbəbindən yenidən ordu sıralarına qayıtmaq qərarını verib. Beləliklə, 2013-cü ilin noyabr ayından Daxili Qoşunların 17072 saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi yenidən Vətənə olan borcunu şərəflə yerinə yetirməyə başlayıb. Burada müxtəlif vəzifələrdə xidmətini davam etdirən Kamran 2018-ci ilin may ayından yaralandığı günədək hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunda atıcı-snayper kimi vəzifə borcunu ləyaqətlə yerinə yetirib. Yüksək döyüş hazırlığı, hərbi intizamı və nümunəvi xidməti ilə hər zaman hərbi hissə komandanlığının etimadını doğruldub.

Doğma Qarabağımızı erməni işğalından azad etmək uğrunda başlayacaq döyüşlərdə fəal iştirak etmək məhz Kamranın da hər zaman ən böyük arzusu olub. Buna görə də Kəlbəcər, Cəbrayıl və Qubadlı rayonlarının azad olunması uğrunda aparılan hərbi əməliyyatlarda fəal iştirak edib.

Müharibə xatirələrini bizimlə bölüşən silahdaşımız ağır yaralanmasına baxmayaraq, bu gün də Vətən uğrunda döyüşməyə və onun yolunda canından belə keçməyə hazır olduğunu bildirdi: "Xoşbəxt insanam ki, hər zaman səbirsizliklə başlamasını arzuladığımız Vətən müharibəsində düşmənə qarşı döyüşmək mənə də nəsib oldu. Təbii ki, bir xüsusi təyinatlı üçün bu olduqca qürurvericidir.





İlk döyüşümüz 2020-ci il sentyabrın 27-də Kəlbəcər istiqamətində oldu. Qarşı-qarşıya döyüşməyə cəsarəti çatmayan düşmən bizi durdurmaq üçün olduğumuz mövqeləri minaatan və digər iriçaplı silahlarla atəşə tutmağa başladı. Bu zaman mənimlə birgə vuruşan, dəstəmizin cəsur xüsusi təyinatlılarından, əslən Kəlbəcər rayonunun Zivel kəndindən olan çavuş Abdullayev Həsən Aydın oğlu aldığı qəlpə yarasından qəhrəmancasına şəhid oldu, digər silahdaşımız çavuş Sabir Əbdürrəhmanlı isə partlayış zərbəsindən travma aldı. Şəhid və yaralımızın döyüş meydanından təxliyyə olunmasında mən də iştirak etdim. Lakin buna baxmayaraq, ağır döyüşlərdən sonra ermənilərin uzun illər Murovdağ istiqamətində nəzarətdə saxladıqları strateji əhəmiyyətli hakim yüksəklikləri azad etdik. Təxminən 5-6 gün burada azad etdiyimiz yeni mövqelərin müdafiəsində dayandıq. Bundan sonrakı döyüş tapşırığımız Füzuli və Cəbrayıl rayonları ərazisində oldu. Ona görə də tutduğumuz postları digər qruplara təhvil verib, Beyləqan istiqamətində hərəkətə başladıq".

Kamran, həmçinin, döyüşçü yoldaşı çavuş S.Əbdürəhmanlının sağaldıqdan sonra Füzuli rayonu ərazisində onunla birgə yenidən hərbi əməliyyatlara qatıldığını və Cəbrayıl istiqamətində şəhidlik zirvəsinə ucaldığını qürur hissi ilə qeyd edir: "Bir neçə gün Beyləqanda qaldıqdan sonra bizi Füzuli rayonu ərazisinə gətirdilər. Burada döyüşçü yoldaşım Sabiri görəndə gözlərimə inanmadım. Sevincimin həddi-hüdudu yox idi. O, Müdafiə Nazirliyinin Gəncə şəhərindəki hərbi hospitalında müalicə aldıqdan sonra vuruşmaq üçün yenidən Füzuliyə - bizim yanımıza gəlmişdi.

Bir neçə gündən sonra Cəbrayıl istiqamətində gedən döyüşlərə qatıldıq. Cəbrayıl şəhərinin girişində, "Dostluq bulağı" deyilən ərazidə şiddətli döyüşlər oldu. Bir müddət burada döyüş əməliyyatlarında iştirak etdik. Oktyabrın 8-də Cəbrayıl istiqamətində baş vermiş ağır döyüşlərin birində cəsur silahdaşımız çavuş Əbdürrəhmanlı Sabir Faiq oğlu şəhid oldu (Ölüm haqqında şəhadətnamədə Füzuli rayonunda şəhid olduğu qeyd olunub). Bu döyüşdə, həmçinin, 99713 saylı hərbi hissədən olan döyüşçü yoldaşımız baş çavuş Nurlan Babayevlə birgə Müdafiə Nazirliyinin 3 nəfər xüsusi təyinatlısı da yaralandı.

Cəbrayıl şəhəri və ətraf ərazilər tam təmizləndikdən sonra bizi Qubadlı istiqamətinə gətirdilər. Buraya gəldiyimiz elə ilk gündən şiddətli döyüşlərdə iştirak etdik. Qubadlı rayonunun girişində bir kənd vardı. Əfsuslar olsun ki, adını unutmuşam. Biz burada yaxşıca mövqelənmişdik. Oktyabrın 19-da səhər düşmən üzərinə hücuma keçməli idik. Səhərin alaqaranlığında kolon şəklində taxıl üçün şumlanmış ərazidə hərəkətdə olarkən qəfildən minaya düşdüm. Görünür, erməni qaniçənləri geri çəkildikləri vaxt haraya gəldi mina düzmüşdülər. Məndən öncə irəlidə hərəkət edən Müdafiə Nazirliyinin zabiti kapitan Polad Rzayev də minaya düşmüşdü. Yarası çox ağır idi. Minanın qəlpəsi məndən fərqli olaraq, onun hər iki ayağını aparmışdı. Hər ikimizə dərhal yerindəcə tibbi yardım olundu. Ağrıkəsici iynə vurdular, qanaxmamızı dayandırdılar və yaramızı sarıdılar. Tez bir zamanda bizi döyüş meydanından təxliyyə etdilər.

Əvvəlcə bizi Lələtəpə istiqamətinə gətirdilər, burada tibbi yardım göstərildi və ayağım amputasiya olundu, oradan Füzuli Diaqnostika Mərkəzinə, oktyabrın 20-də isə məni Bakıya, Daxili Qoşunların Hərbi Qospitalına apardılar".

Vətən uğrunda sol ayağını itirən igid qazimizin ən böyük təsəllisi isə düşməni məğlub edərək, otuz ilə yaxın işğal altında qalan torpaqlarımızı azad etməyimizdir: "Qalib ölkənin hərbi qulluqçusu olmaq, eləcə də üçrəngli bayrağımızın işğaldan azad olunan ərazilərimizdə dalğalanmasını görmək son dərəcə qürurvericidir. Yaralarımızın ən şəfalı məlhəmi də elə məhz budur".

Azərbaycan Respublikası Prezidentinin 18.12.2020-ci il tarixli, 24.12.2020-ci il tarixli, 29.12.2020-ci il tarixli, 24.06.2021-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Puçaxov Kamran İmran oğlu "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilib.

17072 saylı hərbi hissənin "Pələng" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsində xüsusi həmlə qrupunun komandiri, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif edilmiş baş leytenant Qurban Səfərli (hazırda İsmayıllı Rayon Polis Şöbəsinin əməkdaşı kimi xidmətini davam etdirən silahdaşımız Vətən müharibəsi zamanı Şuşa istiqamətində gedən döyüşdə yaralanıb) çavuş K.Puçaxovun qrupun nümunəvi xidmət edən fəal atıcı-snayperi olması ilə yanaşı, həm də əsl vətənpərvər cəngavər kimi döyüş meydanında özünü təsdiq etdiyini bildirdi: "Qrupumuzun Vətən müharibəsində öz cəsarəti və vətənpərvərliyi ilə əsl qəhrəmanlıq nümunəsi göstərən qazi hərbi qulluqçularından biri də çavuş Kamran Puçaxovdur.

Yüksək döyüş hazırlığı, peşəkarlığı, nümunəvi xidməti ilə bütün kollektivin hörmətini qazanıb. Kamranın Vətən müharibəsi zamanı göstərdiyi şücaəti isə xüsusi olaraq qeyd etmək istərdim. Atıcı-snayper kimi onlarla erməni yaraqlısını cəhənnəmə vasil edən silahdaşımız qarşısına qoyulmuş bütün döyüş tapşırıqlarını tərəddüd etmədən layiqincə yerinə yetirib. Kamran kimi cəsur qazi hərbi qulluqçularımızla ancaq qürur duyur, bundan sonrakı həyat və fəaliyyətlərində hər birinə uğurlar arzulayıram".

Sonda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın 2020-ci il sentyabrın 30-da Vətən müharibəsi zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşü zamanı dövlət başçısının qazilər barədə səsləndirdiyi çox dəyərli sözləri qeyd etmək istəyirəm: "Siz gənc yaşlarınızda böyük qəhrəmanlıq, şücaət göstərib, Vətən uğrunda şərəflə vuruşub öz adlarınızı Azərbaycan tarixinə yazdırırsınız. Siz əmin ola bilərsiniz ki, dövlət sizin yanınızda olacaq. Bir arzumuz var ki, siz tezliklə sağalıb, normal həyata qayıdıb öz şərəfli missiyanızı davam etdirəsiniz. Gənclər üçün siz nümunə olmalısınız, örnək olmalısınız. Azərbaycan xalqı qəhrəman xalqdır ki, sizin kimi övladlar yetişdirib".

Öz fədakarlığı ilə adını tariximizin şanlı səhifələrinə yazan cəsur qazimizə bundan sonrakı həyatında uğurlar arzulayırıq.

**mayor Anar Əhmədov**

4_Layout 1 30.06.2021 10:48 Page 1



# Düşmən üzərində qələbənin qazanılmasında psixoloji müharibənin və döyüşçü motivasiyasının təsiri

Bəşəriyyət var olduğu gündən bu günə qədər müharibələr olduğu kimi, bu müharibələrin gedişatına təsir etmək, qələbə qazanmaq, düşmən tərəfində psixoloji çöküşə gətirmə məqsədləri güdən, qarşı tərəfin birbaşa psixoloji durumuna təsir edən psixoloji müharibələr də mövcud olub. Tarix boyunca var olan psixoloji müharibə bu gün də ölkələr və cəmiyyətlər üçün böyük bir gücdür, müəyyən olunmuş hərbi və siyasi məqsədlər uğrunda istifadə edilməkdədir və geniş təsir gücünə malikdir.

İlk psixoloji müharibələrin yaranması Roma dövrünə təsadüf edir. Romalılar özlərini müqəddəs elan edərkən, digər millətləri vəhşi və yırtıcı adlandırırdılar. Onlar psixoloji təsir vasitələri kimi təşkil etdikləri döyüş oyunları sayəsində özlərini bütün dünyaya tanıtdılar. Gustave Le Bon qeyd edib ki, düzgün istifadəsi bilinərsə, psixologiyanın bazasında dünyanın hərbi zavodlarında hazırlanan toplardan daha güclü silahlar vardır.

Psixoloji müharibə düşmən üzərində üstünlüyü və təzyiqi hiss etdirmək, "ipləri əlində saxlamaq" məqsədilə qarşı tərəfin ruhi vəziyyətinə birbaşa təsir göstərmək kimi ifadə edilə bilər. Psixoloji müharibə hədəf olaraq



müəyyən edilən kütlənin sevdiyi və sevmədiyi şeylər, inancları, güclü və gücsüz tərəfləri kimi məlumatların öyrənilməsini tələb edir. Bu informasiyanı əldə edən şəxs və ya şəxslər o kütləyə qarşı bu materialları istifadə edərək lazımi şəkildə psixoloji təzyiq göstərə, düşmənin əhval-ruhiyyəsini və motivasiyasını aşağı sala, qorxuda, manipulyasiya edə, hətta şərtlər əleyhinə olsa belə, qələbə qazana bilər.

Psixoloji müharibənin əsas məqsədi hədəflərə çatmağa yönəlmiş davranışları, düşüncə və hissləri əks etdirmək, kütlələri öz tərəfinə çəkmək, qarşı tərəfin psixoloji dözümünü zəiflətmək, ruhi vəziyyətinə təsir edərək zehni çöküşə səbəb olmaq, hərbi hədəflərə çatmağı asanlaşdırmaqdan, eləcə də dövlətə, millətə və hüquq-mühafizə orqanlarına qarşı təxribat hərəkətlərinin mənbəyini müəyyənləşdirmək, ona qarşı təbliğat üzərində işləmək və həyata keçirməkdən ibarətdir.

Psixoloji müharibədə ilk və ən önəmli həmlə düşməni yaxşı tanımaqdır. İkinci həmlə isə düşmənə müxtəlif yollarla təzyiq edə bilmək, psixoloji olaraq çökdürmək və ya məyusluq hissi yaratmağa çalışmaqdır.

Müharibə zamanı düzgün şəkildə istiqamətləndirilən psixoloji müharibə elementləri qoşunların döyüş qabiliyyətinə müsbət təsir göstərir, hətta gedişatı belə dəyişə bilir. Psixoloji müharibə cəmiyyətin hiss və düşüncələrinə təsir edərək, onun ümumi hədəflərinin eyni olması fikrini daha da dərinləşdirir.

1992-1994-cü illərdə 1-ci Qarabağ müharibəsi zamanı hərbi qulluqçuların üzərində va-



hid komandanlığın olmaması, düzgün aparılmayan tərbiyə işi, kiçik məğlubiyyət belə, ordumuzda böyük ruh düşkünlüyünə gətirib çıxarırdı. 2-ci Qarabağ müharibəsində isə vahid komandanlıq, düzgün idarəetmə sistemi, tam təkmilləşdirilmiş ordu, Ali Baş Komandan İlham Əliyevin xalqa səmimi dildə verdiyi qələbə xəbərləri xalqımızın vahid yumruq kimi birləşməsinə, eləcə də ordumuza inamın artmasına səbəb oldu. Xalqın inamını qazanan hərbi qulluqçularımız hal-hazırda psixoloji olaraq bu mənəvi dəstəyin təsiri nəticəsində daha da möhkəmlənir, qazandıqları inamı artırmağa və itirməmək üçün əllərindən gələni etməyə çalışırlar.

Döyüşçünün şəxsi motivasiyası müharibənin gedişinə necə təsir edir?

Hərb tarixi göstərir ki, müharibənin gedişi və düşmən üzərində qələbə qazanmaq döyüşçülərin müharibəyə və onun məqsədlərinə münasibətindən çox asılıdır. Ölkəmizin ərazi bütövlüyü uğrunda Vətən müharibəsini xalqımız illərlə gözləmişdi. Bu səbəbdən də haqsızlığa qarşı vuruşmaq hər bir vətəndaşımızın ən böyük arzusuna çevrilmişdi. Hərbçilərimizin motivasiyasının yüksək dərəcəsini, motivasiya dərəcəsinin isə qələbənin əsas amillərindən biri olduğunu nəzərə alsaq, qələbə qazanacağımız danılmaz fakt idi.

### Müharibədə motivasiya nədir, onun hansı növləri var?

Müharibədə motivasiya döyüşçülərin müəyyən bir hədəfə çatmaq üçün öz arzu və istəklərindən ruhlanaraq fəaliyyət göstərmələridir.

Motivasiya əsas 2 yerdən ilham alır: daxildən və xaricdən.

Daxili motivasiya - insanın daxilindən qaynaqlanır, döyüşçünün öz xidmətindən məmnun olması, həvəslənməsi, özü-özünü motivləşdirməsi, düşüncə və davranışlarının cəmini təşkil edir.

Xarici motivasiya isə insanın ətrafı, çevrəsi və onu daim ruhlandıran şəxslər, xalq, o cümlədən, hərbçilər üçün həm də komandirlərdir.

**Müharibədə üç əsas motivasiya növü vardır:**

1) mənəvi, əxlaqi, sosial motivlər əsasında motivasiya;

2) kollektiv və qrup motivləri əsasında motivasiya;

3) fərdi motivlər əsasında motivasiya.

### Mənəvi, əxlaqi, sosial motivlər əsasında motivasiya

İnsanın mənəvi, əxlaqi və sosial keyfiyyətləri həm sosial mühit, həm tərbiyə, həm psixoloji amillər, həm də onun şəxsi fəallığı və iradəsi ilə sıx bağlıdır. Bura dinə bağlılığı da əlavə etmək olar. Döyüşçü cəmiyyətdə yaşayır, cəmiyyət isə insan əxlaqına, onun mənəvi simasına, əxlaqa zidd hərəkətlərinə etinasız yanaşmır. Çünki əxlaqi keyfiyyətlər bəşəri dəyərlərdir. Bütün bunları nəzərə alaraq, hər bir döyüşçüyə bu hisslər komandirlər tərəfindən aşılanmalı və onların içində olduqları, qələbə çalmaq üçün döyüşdükləri müharibənin mənəvi, əxlaqi, sosial dəyərləri ətraflı izah edilməli, dini aspektdən müxtəlif aidiyyəti olan yanaşmalardan misallar gətirilməlidir. Nəticə olaraq, qeyd edilən bütün amillər döyüşçü üçün motivasiya "motiv"inə çevrilməlidir.

### Kollektiv və qrup motivləri əsasında motivasiya

Hərbi kollektivlərdə belə bir prinsip var. Döyüş hazırlığı yüksək olan kollektivin tərbiyəvilik imkanları böyük olur. Tərbiyəvilik imkanları yüksək olan kollektivin də döyüş imkanları yüksək olur.

Kollektiv şəxsiyyətə təsirlərin bələdçisidir. Kollektiv vahid bir orqanizmin müstəqil hələqəsidir. Burada insanların fəaliyyəti birləşir, onlar birbaşa və ya dolayısı ilə ünsiyyətdə olur, həm bir-birinə, həm də kollektivə təsir göstərirlər. Kollektivin hərbçilərə təsir imkanları onun təbiəti, quruluşu və xarakter xüsusiyyətlərindən irəli gəlir. Hər bir bölmə Azərbaycan Silahlı Qüvvələrinin canlı bir hissəsidir, eyni zamanda, onlar həm bir-birilə, həm də digər kollektivlərlə möhkəm bağlıdırlar. Mənəvi birlik hərbi kollektivlər üçün xarakterik və vacib cəhətdir. Hərbi kollektivdə mövcud olan qarşılıqlı münasibətlər hərbi qulluqçuların həyatında, hərbi xidmətində ünsiyyət zamanı yaranan münasibətlər sistemidir. Qarşılıqlı münasibətlərin müsbət-mənfi, xeyirxah-konfliktli, formal-qeyri-formal kimi müxtəlif növləri mövcuddur. Onların məzmunu kollektivin inkişaf səviyyəsindən bilavasitə asılıdır.

Ümumən götürdükdə, kollektivin vahid orqanizm kimi fəaliyyət göstərməsi üçün kollektiv prinsipləri əsas götürülməlidir. Döyüşçülər kollektivin ümumi prinsiplərini özləri üçün motiv olaraq qəbul etməlidirlər.

### Fərdi motivlər əsasında motivasiya

Burada artıq döyüşçünün öz şəxsi, mənəvi-əxlaqi keyfiyyətlərinə (kollektivçilik, doğruçuluq, əməksevərlik, məsuliyyətlilik və s.) əsasən motiv bir və ya bir neçə ola bilər. Fərdi motivlər əsasında motivasiya zamanı əsas yük komandirin üzərinə düşür, çünki komandir döyüşçüsünü yaxşı tanımalı, fərdi keyfiyyətlərini dərindən bilməlidir ki, ona təsir metodu olaraq düzgün motivi seçsin.

Şübhəsiz ki, bütün növ motivasiyalar insan resurslarının, döyüşən tərəflərin sıralarına daxil olan cəmiyyətin vəziyyətindən təsirlənir. Din, ideologiya, əxlaq yalnız güclü motivasiya mənbəyi rolunu oynamır, həm də insanı müharibə təhlükələrinə hazırlayır, motivasion münasibətləri qəbul etməyə həssas edir. Düzgün aparılmış motivasiya müharibədə iştirak etmək və qələbə qazanmaq istəyini gücləndirir. Yəni müharibə şəraitində yaşamış ölkə olaraq hərbi qulluqçularımızla onların şəxsi mənəvi-psixoloji durumlarını stabil saxlaya bilmək üçün davamlı öyrədici və istiqamətləndirici söhbətlərin aparılmasına ehtiyac duyulur. Hərbi qulluqçularla aparılan söhbətlər həm dini, həm mənəvi-əxlaqi, həm də vətənpərvərlik mövzularını əhatə etməlidir. Unutmayaq ki, insanlara təsir üsulları fərqli olsa da, yuxarıda qeyd etdiyimiz mövzulardan ən azı biri mütləqdir ki, hərbi qulluqçunun maraq dairəsinə daxil olur.

Güclü motivasiya döyüşçülərdə fədakarlığın yaranmasına kömək edir. Sıralarında fədakarlıq edə biləcək əsgərləri olmayan bir ordu heç bir zaman qələbə qazana bilməz. Düşmən üzərində qazandığımız qələbədə aparılan psixoloji müharibənin də danılmazdır ki, müstəsna payı var. 30 ilə yaxın torpaqları işğal olunmuş, vətəndaşları qəddarcasına öldürülmüş, əsir götürülərək olmazın zülmlərə məruz qalmış, 20 Yanvar faciəsi, Xocalı soyqırımı kimi qırğınları yaşamış xalq olaraq, mənfur düşmənlər nifrətimizin və ondan doğan gücümüzün çox gözəl fərqindədirlər. Bütün hərbi qulluqçularımızın iradəsi, əzmi, Vətən üçün tərəddüd etmədən canından keçmək istəyi, yaralı əsgərlərimizin tibb işçilərinə yenidən döyüşə qayıtmaq üçün etdiyi təkid, qorxmazlıq və mərdlik düşmənə qarşı birmənalı olaraq psixoloji müharibənin ən mühüm təsir vasitəsi oldu.

Sonda isə məqaləmi Necip Fazil Kısayüreyin bu sözləri ilə bitirmək istəyirəm: "Üzülmə! Hər davanın sahibi Haqqdır. Haqq olan davada zəfər mütləqdir!".

**baş leytenant**
**Aygül Dadaşova**
AHM-də təlimatçı-psixoloq

*Nümunəvi xidmət*

# Nəqliyyat vasitələrinin təmirini həyata keçirən heyət

44 gün davam edən Vətən müharibəsi zamanı hərbçilərimiz düşmənin xeyli sayda texnikasını ələ keçiriblər. Düşmənin hərbi texnikaları, əsasən "URAL", "KamAZ-5511", "ZİL-130", "ZİL-131", "QAZ-66" markalı avtomobilləri hərbi qənimət kimi götürülərək, 25032 saylı hərbi hissəyə aparılıb, orada təmir işləri görülüb, xarici görünüşləri qaydaya salınaraq yenidən istifadəyə hazırlanıb. Hərbi hissənin avtomobil xidmətinin rəisi mayor Elman Əhmədov Daxili Qoşunların avtomobil və zirehli texnika təmiri bazasının ezam olunmuş mütəxəssisləri ilə birgə təşkil olunmuş heyət tərəfindən bu işin yüksək səviyyədə görüldüyünü söylədi.

Xidmət rəisi onu da qeyd etdi ki, heyət üzərinə düşən vəzifələri düzgün dərk edir, bütün növ nəqliyyat vasitələrinin saz vəziyyətdə saxlanılması üçün tədbirlər görür. Görülən tədbirlər daim hərbi hissə komandanlığının diqqət mərkəzindədir.



Hərbi hissənin təminat bölüyünün avtomobil taqımında təmir manqasının komandiri çavuş Murad Mehdiyev tabeliyindəki heyətin mülki işçilərdən ibarət olduğunu vurğuladı. Bildirdi ki, onların əsas vəzifəsi təmirə ehtiyacı olan nəqliyyat vasitələrinin təmirinin həyata keçirilməsidir.

Mayor E.Əhmədov avtomobil parkında olan nəqliyyat vasitələrinə yüksək səviyyədə texniki qulluq göstərildiyini qeyd edərək, avtomobil taqımının şəxsi heyəti ilə keçirilən ixtisas hazırlığı məşğələlərinə də ciddi fikir verildiyini bildirdi: "Qarşımıza qoyulan əsas tapşırıqlardan biri avtomobillərin daim saz vəziyyətdə olmasıdır".



Xidmət rəisi onu da vurğuladı ki, gündəlik olaraq park xidmətinin təşkil olunub aparılmasına və nəqliyyat vasitələrinə texniki qulluğun göstərilməsinə nəzarət edilir, təhlükəsizlik qaydaları fərdi olaraq çatdırılır. Görülən gündəlik işlərdən başqa, nəqliyyat vasitələrinə ildə iki dəfə - yay və qış mövsümlərində texniki qulluq göstərilir. Bu zaman avtomobillərdə təmir işləri aparılır, xarici görünüşləri qaydaya salınır və yanacaq-sürtkü materialları ilə təmin olunur.

Avtomobillərin saz vəziyyətdə saxlanılması, nasaz avtomobillərin dərhal təmiri mühüm əhəmiyyət kəsb edir. Mayor E.Əhmədov mülki işçilərdən dəmirçi Elman Heydərov və mühərrikçi Rais Bağırovun bu tipli avtomobillərin saz vəziyyətə gətirilməsində əməyinin təqdirəlayiq olduğunu bildirdi.

Təmir işlərinin texnoloji cəhətdən düzgün aparılması, bu zaman qabaqcıl təcrübədən istifadə edilməsi, eləcə də təhlükəsizlik qaydalarına ciddi riayət olunması şəxsi heyətin qarşısına qoyulan mühüm vəzifələrdəndir.

**kapitan Sadıq Rəfiyev**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR -

### Türkiyə ordusuna daha bir "ATAK" helikopteri təhvil verilib

Türkiyə Quru Qoşunları "T129 ATAK" helikopterini təhvil alıb.



"Report" "TRT Haber"ə istinadən xəbər verir ki, məlumatı Türkiyənin Müdafiə Sənayesi Nazirliyi twitter səhifəsində "Göy üzündə nəfərlərimiz çoxalır" başlığı altında yayıb.

"T129 ATAK" Türkiyənin Aviasiya və Kosmik Sənayesi tərəfindən istehsal edilib. Silahlı Qüvvələrin hücum helikopterlərinə ehtiyacını ödəmək məqsədilə Türkiyəyə məxsus milli imkanlardan istifadə olunaraq inkişaf etdirilib.

Qeyd edək ki, 57 "T129 ATAK" helikopteri istehsal olunub. İlk dəfə 2009-cu ildə silah arsenalına daxil edilib. Azərbaycan və Pakistan silahlı qüvvələri də "T129 ATAK" helikopterinə sahibdir.

### Yeni DANA-M2 haubitsasının sınaqları keçirilib

Çexiyanın EXCALIBUR ARMY şirkətinin istehsal etdiyi yeni 152 mm-lik DANA-M2 özüyeriyən artilleriya qurğusunun (ÖAQ) sınaqları keçirilib.

"Poliqon" xəbər verir ki, EXCALIBUR ARMY şirkəti sınaq mərhələləri barədə hazırladığı videoçarxı özünün "YouTube" kanalında paylaşıb.



DANA-M2 ÖAQ əvvəlki 152 mm-lik "DANA vz 77" ÖAQ-ın əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş versiyasıdır. İki əsas yenilənmədən sonra bu artilleriya sistemi yeni kabina, atəşə nəzarət sistemi və imkanlarını yaxşılaşdıran bir sıra digər inkişaflara sahibdir.

## Allah rəhmət eləsin

16073 saylı hərbi hissənin şəxsi heyəti baş leytenant Taleh Əsgərova **qardaşının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16077 saylı hərbi hissənin şəxsi heyəti baş çavuş Səməndər Əsgərova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000